*S.Xanlarova. Mirzə Həsən Qarabaği şeirlərinin səciyyəvi xüsusiyyətləri barədə // Əlyazmalar yanmır, 2022, № 1 (14), s.69-75.*

UOT: 82-1.512.162

**Sədiyyə Xanlarova**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu,*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
*e-mail: aliyeva.tahira1@gmail.com*

# MİRZƏ HƏSƏN QARABAĞİ ŞEİRLƏRİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ BARƏDƏ

**Xülasə**

XIX əsrdə yaşamış Azərbaycan şairlərindən bir çoxu müxtəlif şəhərlərdə təşkil edilmiş ədəbi məclislərin üzvü idilər. Bu şairlər vaxtaşırı olaraq məclislərdə toplaşar, klassik poeziya nümunələrini, öz əsərlərini ifa edər, bu əsərləri dəyərləndirərdilər. Belə şairlərdən biri də Şuşa şəhərində fəaliyyət göstərən "Məclisi-üns" ədəbi məclisinin üzvü Mirzə Həsən Qarabaği olmuşdur. Mirzə Həsən Əli oğlu Yüzbaşov Qarabaği 1824-cü ildə Şuşada dünyaya gəlmişdir. Burada mükəmməl mollaxana təhsili almışdır. Mirzə Həsən klassik ədəbiyyatın Firdovsi, Nizami, Sədi, Hafiz, Cami, Nəvai, Füzuli kimi nümayəndələrinin əsərlərini dərindən öyrənmişdir. Gənc yaşlarından xırda alverlə məşğul olan Həsən şeirə maraq göstərmiş, şairlər məclisində həvəslə iştirak etmiş, ayrı-ayrı əsərlərin müzakirəsində öz fikrini söyləmişdir.

Mir Möhsüm Nəvvab yazır ki, şairə "Kaşifi" təxəllüsünü seçsə də, o, əsərlərini "Həsən" imzası ilə yazmışdır. Mirzə Həsən 1904-cü ilin fevral ayının əvvəllərində 80 yaşında vəfat etmişdir.

Şairin ədəbi irsi mövzu dairəsinin genişliyi, janr əlvanlığı ilə diqqəti cəlb edir. Onun əsərləri uzun müddət nəşr olunmamış, tədqiqata cəlb edilməmişdir. İlk dəfə Əlyazmalar İnstitutunun mərhum əməkdaşı, filologiya elmləri namizədi Nəsrəddin Qarayev 1973-cü ildə əlyazmalar əsasında onun əsərlərini nəşr etdirmişdir.

***Açar sözlər:*** *Mirzə Həsən Qarabaği, şair, qəzəl, məsnəvi, satira*

**Giriş**

*XIX əsrdə Azərbaycanın müxtəlif şəhərlərində şairlər məclislərdə toplaşır, klassik ədəbiyyat nümunələrini, öz əsərlərini ifa edir, əsərlər barədə fikir mübadiləsi aparırdılar. Mirzə Həsən Yüzbaşov belə məclislərdən birinin – Şuşada fəaliyyət göstərən "Məclisi-üns" ədəbi məclisinin fəal üzvlərindən biri olmuşdur. Tədqiqatçılar adı çəkilən məclisin ən fəal*

*üzvləri barədə yazırlar: "Bu məclisin əvvəllər dörd üzvü olmuşdur: Mirzə Rəhim Fəna (1841-1929), Hacı Abbas Agəh, Məmo bəy Məmai (1834-1918) və Mirzə Ələsgər Növrəs (1896-1912) kimi üzvlərinin olduğunu göstərirlər. Lakin 1872-ci ildə Xurşidbanu Natəvanın məclisi öz himayəsinə götürməsi onun məşğələlərini daha da canlandırdı, getdikcə "Məclisi-üns"ün şöhrəti artmağa başladı. Onun yığıncaqlarında Xurşidbanu Natəvan, Fatma xanım Kəminə, Mirzə Həsən Yüzbaşov kimi istedadlı şairlər iştirak etməyə başladılar [1,s.283]*

Mirzə Həsən Əli oğlu Yüzbaşov Qarabaği 1824-cü ildə Şuşada dünyaya gəlmişdir. Burada mükəmməl mollaxana təhsili alan şair klassik ədəbiyyatın Firdovsi, Nizami, Sədi, Hafiz, Cami, Nəvai, Füzuli kimi böyük nümayəndələrinin əsərlərini dərindən öyrənmişdir.

Mir Möhsün Nəvvab öz təzkirəsində gənc şair Mirzə Həsəni yüksək dəyərləndirir, onun üçün "Kaşifi" təxəllüsünü seçdiyini, Mirzə Həsənin isə bunu qəbul etməyib öz adı ilə şeirlər yazdığını deyir: "Cənab sərkar Mirzə Həsən Əli mərhum Yüzbaşı oğlu Şuşa şəhərindəndir. "Məclisi-üns"ün üzvlərindən biridir. Eybsiz bir şəxsdir. Yaşı əlli altıya yaxın olar. Mən onun üçün "Kaşifi" ləqəbini seçdim, lakin ləqəbi Bərğidir. Şeirlərini (isə) Həsən adıyla yazır. Sənəti tacirlikdir. Çox vaxt "Məclisi-üns"də həm azərbaycanca, həm də farsca şeirlər oxuyur. Yaxşı məsnəvi deyir. Bir il bundan əvvəl mən "Məclisi-üns"ün üzvləri ilə, onunla sual-cavab etmişəm. İnşallah, sağlıq olsun, bu kitabın axırında yazacağam və onun məsnəviləri orada göstərilir"[2, s. 241].

Mirzə Həsənə "Kaşifi" təxəllüsünün təklif edilməsi məsələsinə görkəmli ədəbiyyatşünas Məhəmmədəli Tərbiyət də öz təzkirəsində toxunmuşdur [3, s. 182].

Ömrünün əsas hissəsini Şuşada yaşayan şair 1904-cü ildə 80 yaşında burada vəfat etmişdir. Onun ədəbi irsi uzun müddət nəşr edilməmiş, tədqiqatdan kənarda qalmışdır. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun mərhum əməkdaşı, filologiya elmləri namizədi Nəsrəddin Qarayev 1973-cü ildə Mirzə Həsənin şeirlər toplusunu nəşr etdirmişdir. N.Qarayev "XIX əsr Azərbaycan ədəbi məclisləri" adlı monoqrafiyasında əlyazma mənbələri əsasında şairin həyat və yaradıcılığı barədə fikir söyləmişdir. Mirzə Həsən Qarabağinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda bir əlyazma divanı saxlanır. M-91 şifri altında saxlanan bu nüsxəni onun oğlu Xəlil Yüzbaşov köçürmüşdür. Şairin divanının öz əli ilə köçürdüyü avtoqraf nüsxəsi onun başqa oğlu Qasım Yüzbaşovun arxivindədir. Mirzə Həsən 1893-cü ildə tərtib etməyə başladığı şeirlər toplusu – divanına gənclik illərində yazdığı bir sıra şeirlərini daxil etməmişdir. Bu avtoqraf nüsxədə altı min beytdən çox Azərbaycan və fars dillərində yazılmış qəzəl, məsnəvi, tərkibbənd, tərcibənd, rübai, qitə, təmsil və təxmis vardır. Bu şeirlərdən Mirzə Həsənin klassik Şərq ədəbiyyatı ənənələrinə sadiq qaldığını görürük.

Şairin məsnəvi janrında yazdığı şeirlərini yüksək dəyərləndirən Nəsrəddin Qarayev yazır: "Mirzə Həsən müasirləri arasında gözəl məsnəvi ustası kimi tanınmışdır. Onun məsnəvi yazmaqda "Məclisi-üns" və "Məclisi-fəramuşan" şairlərindən fərqlənməsini M.Nəvvab qeyd etmişdir. "Rəsmi-vilayəti-Qarabağ və şəhri-Şişə"("Qarabağ vilayəti və Şuşa şəhərinin adətləri"), "Oğluma nəsihət" əsərləri, Natəvana, Nəvvaba, Hacı Həsən Agəha yazılmış məktubları və təmsilləri Mirzə Həsənin rəvan dildə, sənətkarlıq məharəti ilə yazılmış məsnəvilərindədir" [4, s. 175].

Mirzə Həsənin lirik-aşiqanə mövzulu şeirləri əsasən onun qəzəllərindən ibarətdir. Bu əsərlərdə klassik şeirlərin, xüsusilə də Füzulinin güclü təsiri özünü göstərməkdədir. Qəzəllərindən birində sevgilisinin üzünü günəşə bənzədən şair əsl eşqin dünyanı dərk etməyin bir vasitəsi saydığını, aşiqin bu yolda hər cür fədakarlığa hazır olmalı olduğunu bildirir:

*Şöleyi-hüsnü rüxün gün-gündən eylər irtifa,*
*Mehri-ruyindən dəmadəm gün qılar kəsbi-şüa.*
*Kim sevər yarın gərək dünyanı dərk etsin yəqin,*
*Vəsli-canan istəyən canından eylər intiqa.*
*Vermişəm can navəki-müjganə görgəc arizin,*
*Yoxdu canimdan səfa, ey məh, əlində bir məta* [5, s. 17].

Mirzə Həsən bir sıra şeirlərini sevgilisinə müraciətlə yazmışdır, sanki, bu əsərlər onun məşuqəsinə yazdığı mənzum məktublardır. Bu cür əsərlərdə, o, yarının gözəlliklərindən danışır, vüsala çatmayan aşiq kimi çəkdiyi əzablardan bəhs edir:

*Cəhan bağında, ey gül, sən kimi bir sərvnaz olmaz.*
*Bəli, çox sərv olu, sən tək səhiqəd, sərfəraz olmaz.*
*Yetişgəc mehri-ruyin çıxdı candan səbrü aramım,*
*Əzizim, hər yetən quş həmmişini-şahbaz olmaz* [5, s. 33].

“Ləziz” Rətifli qəzəli şairin yarına üz tutub yazdığı ən səmimi şeirlərindəndir. Burada, o, məşuqəsini hər şeydən, hətta öz canından da üstün tutduğunu bildirir.

*Şövqi-mehri-arizin cismim ara candan ləziz,*
*Şövqi-şəhdi-ləlin, ey məh, abi-heyvandan ləziz.*
*Mahi-rüxsarın ziyası mehri-ənvərdən münir,*
*Xəlqə ağzın qönçəsi gülbərgi-xəndandan ləziz.*
*Yadi-gülzari-rüxün firdovsi-əladən gözəl,*
*Gülşəni ruyin səfası bağı-rizvandan ləziz* [5, s. 37].

Qeyd etdiyimiz kimi, Mirzə Həsənin şeirlərində klassik şairlərin, xüsusilə də Füzulinin təsiri müşahidə olunmaqdadır. O, bir sıra klassik şairlərin, ən çox da Füzulinin qəzəllərinə nəzirə yazmışdır. Şair Füzulinin “Nə görər əhli-cəfa məndə vəfadan qeyri?” – misrasıyla başlanan qəzəlinə aşağıdakı beytlərlə başlanan nəzirə yazmışdır:

*Məndə yarım nə tapar mehri vəfadən qeyri?*
*Onda könlüm nə bular cövrü cəfadan qeyri?*
*Yoxdu bir kəs yetə fəryadıma hicrən gecəsi,*
*Ola qəmxar mənə ahü nəvadən qeyri* [5, s. 42].

Mirzə Həsən öz müasirləri, Azərbaycanın başqa şəhərlərində fəaliyyət göstərən ədəbi məclis üzvləri ilə də şeirləşmişdir. Şamaxıdakı "Beytüs-səfa" ədəbi məclisinin üzvləri Füzulinin:

*Təriqi-fəqrə tutsamı təb tabe, nəfs ram olmaz.*
*Qina qılsam tələb, əsbabi-cəmiyyət təmam olmaz*

-mətləli qəzlinə nəzirə yazaraq Şuşanın "Məclisi-fəramuşan" ədəbi məclisinin üzvü Abdulla bəy Asiyə göndərmişlər. Bir sıra şuşalı şairlər, o cümlədən, Mirzə Həsən həmin qəzələ cavab yazmışlar. Mirzə Həsənin nəzirəsi aşağıdakı misralarla başlanır:

*Könül, ta bəzm ara cam olmasa, eyşin, tamam olmaz,*
*Küdurətxanədir mütləq o yer kim, onda cam olmaz.*
*Qədəh tut, saqiya, rüsvalığım ta xəlqə faş olsun-*
*Kim, əhli-esqdə hərgiz xəyali-nəngü nam olmaz* [5, s. 34].

"Məclisi-üns" ədəbi məclisinin rəhbəri Xurşidbanu Natəvan Cənubi Azərbaycan şairi Əbülhəsən Racinin "Olaydı" rədifli qəzəlinə

*Nə mən olaydım, ilahi, nə də bu aləm olaydı,*
*Nə də bu aləm ara dil müqəyyədi-qəm olaydı*

- mətləli nəzirə yazıb.Mirzə Həsən bu şeirə cavab olaraq

*Nə dil, ilahi, zülfi-xəm ilə həmdəm olaydı,*
*Nə böylə zarü pərişan, nə böylə bərhəm olaydı* [5, s. 40].

- mətləli nəzirə yazıb.

Şairin yaradıcılığı ictimai məzmunlu, cəmiyyətdəki nöqsanları tənqid edən əsərləri ilə də diqqəti cəlb edir. N.Qarayev onun bu əsərləri barədə yazır: Mirzə Həsən yaşa dolduqca, həyat təcrübəsi artdıqca sənətkarlığı yetkinləşdiyi kimi, onda həyatın ictimai eyiblərinə, ziddiyyətlərinə qarşı tənqidi münasibət də qüvvətlənmişdir. Bu hal onun H.A.Agəhə məktubunda və ömrünün son çağlarında yazdığı "Rəsmi -vilayəti Qarabağ..." əsərində özünü bariz şəkildə göstərir [4, s. 175]. "Rəsmi-vilayəti-Qarabağ və şəhri- Şişə" əsərində əsasən XIX əsrdə Qarabağda keçirilən yas və toy məclisləri təsvir olunur, buradakı israfçılıq, xoşagəlməz hallar tənqid hədəfinə çevrilir. Cəmiyyətin bir sıra üzvlərinin tüfeyliliyini pisləyən, onları elmə, təhsilə səsləyən şairin əsərlərindən onun maarifçi dünyagörüşü açıq-aydın görünməkdədir. Müəllif belə hesab edirdi ki, yaşadığı cəmiyyətdəki ictimai bəlaların əsas səbəbi insanların elm və mədəniyyətdən uzaq olmalarıdır. "Oğluma nəsihət" adlı əsərində şair insan ləyaqətini alçaldan ikiüzlülük, lovğalıq, təkəbbür, xəyanətkarlıq, qumarbazlıq, sərxoşluq kimi mənfi sifətləri tənqid edir, elm və təhsilin, müxtəlif sənətlərə sahib olmağın faydasından, dostluq və yoldaşlıq etməyin qaydalarından danışır Mirzə Həsən:

*Əfsus ki, aləmdə bir imdada yetən yox,*
*Fəryad qılan çoxdu, vəli dadə yetən yox* [5, s. 67].

mətləli qəzəlində imkanlı insanların, ehtiyacı olanların, yoxsulluq içində boğulanların taleyinə biganəliyindən şikayət edir.

Şair qitə və rübailərində maarifçi fikirlərini yaymağa çalışmış, oxucunu bəd əməllərdən, tüfeylilikdən, mənfi sifətlərdən uzaq olmağa, əməyə, elmə çağırmışdır. Qitələrindən birində şair müasirlərinə aşağıdakı müsbət keyfiyyətləri təlqin edir:

*Mərd odur kim, ola bieybü riya, mərdi-nəvaz,*
*Edə ətvarını xoş,xülgünü xoş,hirsini az.*
*Cümlə göftarı sələmət ola, kəftarı səlim,*
*Qıla hər seyrü sülukin nə ki var şər ilə saz* [5, s. 97].

Mirzə Həsənin mənzum məktubları müxtəlif səbəblərdən yazılmışdır. Natəvanın xəstələnib “Məclisi-üns”ün məşğələlərinə gələ bilməməsi səbəbi ilə yazdığı məktubunda, şairəyə deyir ki, sənsiz bu məclisin heç bir ləzzəti qalmamışdır:

*Müddətdi bu bəzmi-zövqi-müşrib,*
*Sənsiz dəxi olmuyub mürəttib...*
*Sən baisi-məcməi-səfasən,*
*Sən “Məhfili-’üns”ə müddəasən.*
*Sənsiz nə qəzəl səralıq olsun?*
*Əşarilə aşinalıq olsun* [5, s. 107].

Hacı Abbas Agəhə yazdığı məktubunda şair insanların bəd əməllərə qurşanmasından, onların riyakarlığından, nadanlığından, pis vərdişlərə aludə olmasından narazılığını bildirir:

*İnanma bunları zahirdə görsən mehribanlar tək,*
*Olan bunlarda, billah, batinən büğzü ədavətdir.*
*Xilafi-şər’ə şaiq, şeytanət şüğlündə çox mahir,*
*Ümumən işləri nahəq sitəm, nahəq şəhadətdir.*
*Xilaf iş hər nə var izzət tapıb, rövnəqdədir daim,*
*Şəriət məhvdir,dindarlıq cayi-məlamətdir* [5, s. 116].

Mirzə Həsən “Tülkü və qurd”, “Kəndli və ayı” , “Şir və dovşan”, “Şir və siçan”, “Əfi ilan və cavan”, “At və eşşək”, “Pişik və ət”, “Eşşək və xoruz”, “Ovçu və at” və s. Kimi təmsillərin müəllifidir. Bu əsərlər XIX əsrin görkəmli şairi Qasım bəy Zakirin təmsilləri ilə səsləşməkdədir. Şairin “Qurd və tülkü” təmsili bir qocanın meşədə tələ qoymağı ilə başlanır. Ac bir tülkü tələdəki ciyəri görüb yemək istəyir, tələyə düşür. Vəziyyətdən çıxmaq üçün özünü ölülüyə vurur. Qoca tülkünü ölmüş bilib tələni açır. Tülkü durub aradan çıxır. Meşədə bir qurda rast gəlir, ona deyir ki, bu yaxında qonaqlıq var, gedək göstərim. Qurd tülkü ilə bərabər tələyə yaxınlaşır. Ciyəri görüb tülküyə deyir ki, gəl bu ciyəri səninlə yeyək. Tülkü

cavab verir ki, mən orucam. Qurd yemək istərkən tələyə düşür, tülkü kənara düşən ciyəri yeməyə başlayır. Qurdun - axı sən oruc idin, nə üçün yeyirsən- sualına tülkü cavab verir ki, mən ayı görmüşəm, ona görə də bayram edirəm. Müəllif təmsildən nəticə çıxararaq oxucularına başa salır ki, həyatda hər kəsə inanmaq olmaz:

*Eşit, oğlum, bu məsəli Həsəndən,*
*İstəmə doğruluq hər bir yetəndən.*
*Aqil olan hər yalana inanmaz,*
*Hər yalan kəlamı səlamət sanmaz* [5, s. 129].

"Kəndli və ayı" adlı təmsildə ayı ilə dostluq edən kəndlidən söhbət gedir.

Kəndli bostanında işləyir, ayı da onun yanında dururmuş. İşləməkdən yorulan qoca bir sərin yer tapıb orada yatır, ayı isə bostanı qoruyur. Bir neçə milçək qocanın üstünə qonur. Bundan narahat olan ayı böyük bir qaya parçasını götürüb milçəkləri qovmaq istəyir. Daş kəndlinin başına dəyən kimi, o, ölür. Müəllif belə bir nəticəyə gəlir ki heç kim ağılsız şəxslə dostluq etməməlidir:

*Nadan adam ilə hərgiz eyləmə ülfət,*
*Ta ki, ondan görməyəsən xəsarət.*
*Qanmaz ilə mütləq oturub durma,*
*Ömrünü puç edib, özünü yorma* [5, s. 131].

Şairin başqa təmsilləri də ibrətamiz-nəsihətamiz xarakter daşıyır, insanlara ayrı-ayrı həyati məqamlar üçün nəsihət kimi səslənir.

**Nəticə**

*XIX əsrdə Şuşa şəhərində fəaliyyət göstərən Mirzə Həsən Qarabaği Yüzbaşov Qarabağ ədəbi mühitinin istedadlı nümayəndələrindən olmuşdur. Onun altı min beytdən artıq həcmdə olan şeirlər toplusunda Azərbaycan və fars dillərində, klassik Şərq poeziyasının müxtəlif janrlarında yazılmış şeirlər toplanmışdır. Şair xüsusilə məsnəvi janrında yazdığı əsərləri ilə tanınmışdır.*

*Mirzə Həsənin şeirləri mövzu cəhətdən də rəngarəngdir. Onun qəzəlləri əsasən lirik-aşiqanə mövzuda yazılmışdır. Şairin qəzəllərində klassik ədəbiyyatın görkəmli nümayəndələri Firdovsi, Nizami, Sədi, Hafiz, Cami, Nəvai, xüsusilə də Füzulinin təsiri hiss edilməkdədir. Mirzə Həsən bir sıra şeirlərində dövrünün nöqsanlarını tənqid etmiş, müasirlərinin mənfi sifətlərini pisləmiş, maarifçi görüşlərini təbliğ etmişdir.*

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. Dördüncü cild: -Bakı:-"Elm", -2011.- 860 s.
2. Nəvvab, Mir Möhsün.Təzkireyi-Nəvvab / -Bakı:-"Elm", -2018. -740 s.
3. Tərbiyət, Məhəmmədəli. Danişməndani -Azərbaycan/ - Dövlət Nəşriyyatı, - 434 s.

4. Qarayev, Nəsrəddin. XIX əsr Azərbaycan ədəbi məclisləri/- Bakı:-"Elm və təhsil", - 2012.- 325 s.

5. Qarabaği, Mirzə Həsən. Seçilmiş əsərləri / Müqəddimə, şərh və qeydlərin müəllifi: Nəsrəddin Qarayev. –Bakı:- 1973.- 174 s.

**Sadiya Khanlarova**

**About the characteristic features of Mirza Hasan Garabaga's poems**

A number of Azerbaijani poets of the XIX century were members of literary majlises established in different cities. These poets gathered in mejlis, read samples of classical poetry, their poems, evaluated these works. One of such poets was Mirza Hasan Garabagi, who was a member of the Shusha literary Majlis "Majlisi–uns". Mirza Hasan Ali oglu Yuzbashev Garabagi was born in 1824 in Shusha. Here he was educated in mollahana. He carefully studied the works of such classics of Oriental literature as Firdousi, Nizami, Saadi, Hafiz, Jami, Navai, Fuzuli. Hasan was engaged in trade from a young age, was interested in poetry, exchanged opinions with poets, expressed his thoughts during the discussion of various literary works.

Mir Mohsun Navvab writes that he chose the pseudonym "Kashifi" for the poet. But he signs the poems with his name. Mirza Hasan died in early January 1904, when he was 80 years old.

Its breadth of themes and genre diversity distinguishes the poet's literary heritage. For a long time, his works were not published and researched. For the first time, Nasreddin Garayev, an employee of the Institute of Manuscripts, published a collection of his works on the basis of manuscripts in 1973.

***Keywords:*** *Mirza Hasan Garabagi, poet, gazelle, masnavi, satire*

Filologiya üzrə elmlər doktoru, dosent
**Raqub Kərimov** tərəfindən çapa tövsiyə olunmuşdur.